# Uşaq ədəbiyyatımıza bir nəzər

Ümumi ədəbiyyatımızın ayrılmaz tərkib hissəsi, onun spesifik bir qolu olan uşaq ədəbiyyatı söz sənətinin strateji əhəmiyyət kəsb edən bir sahəsidir. Ona görə ki, uşaq ədəbiyyatı birbaşa məktəblə, təlim-tərbiyə ilə, yeni nəslin ədəbi zövqünün formalaşması ilə əlaqədardır. Uşaq vaxtı gözəl şeirlər, hekayələr, nağıllar oxuya-oxuya ədəbi zövqü formalaşmayan, ürəyində mütaliəyə həvəs, ehtiyac oyanmayan insanın böyüyəndə ciddi sənət nümunələrini anlaması bir qədər inandırıcı təsir bağışlamır. Öyrəndiyi ilkin ədəbi nümunələr uşağın ədəbiyyata, mütaliəyə həvəsini artırdığı kimi, heç bir məzmun və forma gözəlliyi, didaktik və tərbiyəvi əhəmiyyəti olmayan ümumi söz yığımından ibarət nəzm parçaları, hekayələr, nağıllar isə uşağın şeirə, sənətə, müstəqil oxuya marağını birdəfəlik öldürə bilər. Elə buna görə də ədəbiyyatımızın sabahı naminə onun çox həssas və vacib bir sahəsi olan uşaq ədəbiyyatına ümumxalq səviyyəsində xüsusi qayğı, diqqət, eyni zamanda tələbkarlıq lazımdır. Uşaq ədəbiyyatını təlim-tərbiyə işindən başı çıxmayan, uşaq psixologiyasını bilməyən, poetik zövqü son dərəcə aşağı səviyyədə olan naşı yazarların ümidinə buraxmaq olmaz.

Burada istər-istəməz görkəmli maarifpərvər Cəlil Məmmədquluzadə ilə bağlı maraqlı bir fakt yada düşür. Bir gün cavan bir qələm sahibi özündən razı halda Mirzə Cəlilə deyir ki, Mirzə, necə məsləhət görürsən, istəyirəm ki, mən uşaqlar haqqında bir kitab yazam?

Gənc qələm sahibinin təkəbbürü Cəlil Məmmədquluzadənin xoşuna gəlmir. O, incə bir yumorla soruşur ki, bala, mən başa düşə bilmirəm, məgər uşaqlardan uşaqlar yazırlar?

Rus uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən biri, pedaqoji elmlər akademiyasının həqiqi üzvü S.Mixalkov çox doğru olaraq qeyd edirdi ki, o adam ki, uşaqla oynamağı bacarmır, ondan uşaq yazıçısı ola bilməz. Rus uşaq ədəbiyyatının digər görkəmli nümayəndəsi K.Çukovski görkəmli pedaqoq, psixoloq idi. O, uşaqların heç bir hərəkətinə, heç bir sözünə biganə qalmır, onları öyrənməyə, başa düşməyə çalışırdı. Elə buna görə də onun yazdığı əsərləri uşaqlar böyük maraqla oxuyurdular. Dünya uşaq ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan italiyalı C.Rodari də ixtisasca müəllim idi, özünün etirafına görə əsər yazanda öz şagirdlərindən öyrəndikləri onun çox köməyinə gəlmişdi...

Doğrudan da, uşağın diqqətini cəlb eləyən, onu maraqlandıran əsərlər yazmaq üçün ilk növbədə körpələri yaxından tanımaq, onların arzu və düşüncələrini, yaş səviyyələrini bilmək və nəzərə almaq zəruridir. Bir faktı xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan uşaq ədəbiyyatının ilk nümunələrini yaradan, bu ədəbiyyatın formalaşmasında xidməti olan yazıçıların əksəriyyəti ixtisasca müəllim, pedaqoq, tərbiyəçi, maarifpərvər ziyalılar olmuşlar. A.Bakıxanov, S.Ə.Şirvani, H.Zərdabi, A.Səhhət, M.Ə.Sabir, C. Məmmədquluzadə, R.Əfəndiyev, F.Köçərli, A.Şaiq, S.S.Axundov və başqa bu kimi qələm sahiblərimiz uşaqlar üçün əsər yazarkən, başqa xalqların dilindən mətnlər tərcümə edərkən, dərsliklər hazırlayarkən ilk növbədə uşaqların yaş xüsusiyyətlərini nəzərə almış, uşaq oxusu üçün tədris ədəbiyyatı yaratmağa cəhd göstərmişlər. Uşaq ədəbiyyatına maraq Azərbaycan müəllimlərinin 1906-cı ildə keçirilən birinci qurultayından sonra daha da artmışdır. Məktəblərin açılması ideyası uşaqlar üçün dərsliklərin yaranması, uşaqlar üçün əsərlər yazılıb nəşr edilməsi zərurətini ortaya qoymuşdur. Beləliklə, ilk uşaq mətbuatı meydana gəlmişdir. Nəşr illəri o qədər uzun olmasa belə, Azərbaycan uşaq ədəbiyyatının sistemli şəkildə formalaşmasında "Dəbistan", "Rəhbər", "Məktəb" dərgilərinin çox böyük rolu olmuşdur. Bu jurnallarda H.Zərdabi, N.Nərimanov, S.M.Qənizadə, M.Hadi, M.Ə.Sabir, A.Səhhət, S.S.Axundov, F.Köçərli, A.Şaiq kimi müasir Azərbaycan yazıçılarının əsərləri ilə bahəm onların Krılovdan, Puşkindən, Lermontovdan, Hötedən, Hüqodan, Qorkidən, Sədidən elədikləri tərcümə əsərlərinin nəşri uşaq ədəbiyyatımızın coğrafi ərazisini genişləndirmək sahəsində atılan ilk addımlar olmuşdur. Bundan başqa maarifpərvər ziyalılarımızın tərtib etdikləri ilk dərsliklərdə, oxu kitablarında dünya folklorundan, dünya yazıçılarının əsərlərindən nümunələrin verilməsi uşaq ədəbiyyatımızın inkişaf istiqamətinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

"Hərb və sülh", "Anna Karenina", "Dirilmə" kimi çoxşaxəli romanlar müəllifi, xarakter yaratmaq ustası kimi tanınan Lev Tolstoyun uşaq oxusu üçün əsərlər toplaması, başqa dillərdən xarakterik nümunələri yaradıcı şəkildə tərcümə eləyib, işləyib öz oxu kitabına daxil eləməsi, uşaq ədəbiyyatına çox böyük önəm verməsi təsadüfi deyildi. Dahi yazıçı dərindən dərk eləyirdi ki, xalqı qəflət yuxusundan ayıltmaq, kütləni savadsızlığın pəncəsindən xilas etmək üçün uşaq ədəbiyyatına böyük ehtiyac vardır. Elə buna görə də o həm özü uşaqlar üçün əsərlər yazır, xarakterik sandığı olmuş hadisələri qələmə alır, həm də digər xalqların nağıllarından, təmsillərindən yaradıcı şəkildə bəhrələnirdi. Məsələn, uzun illər dərsliklərimizdə özünə möhkəm yer tutan, Lev Tolstoyun əsəri kimi təqdim olunan "İki yoldaş" rəvayəti əslində Qrimm qardaşlarının topladığı nağılların birindən iqtibas edilmişdir.

Bu üsuldan bizim uşaq yazıçılarımız, dərslik tərtib edən pedaqoqlarımız da bəhrələnmişlər. Abdulla Şaiqin "Xoruz", "Keçi", "Uşaq və dovşan" və s. bu tipli şeirləri indi bütün Azərbaycan uşaqlarının dilinin əzbəridir. Ədəbiyyat tarixindən az-çox xəbəri olanlar bilir ki, Abdulla Şaiq də bu və ya buna bənzər əsərləri qələmə alıb dərsliklərə salarkən Lev Tolstoyun istifadə etdiyi metoddan bəhrələnmişdir.

*Ay pipiyi qan xoruz,*
*Gözləri mərcan xoruz.*
*Sən nə tezdən durursan,*
*Qışqırıb banlayırsan.*
*Qoymayırsan yatmağa,*
*Ay canı məstan xoruz.*

Bu misralarla rus variantında təqdim etdiyimiz aşağıdakı şeir parçasını müqayisə etsək, izahata heç o qədər də böyük ehtiyac qalmır və bunu deməklə bizim fikrimiz dahi uşaq yazıçımızı gözdən salmaq deyildir, əksinə, onun "əlimyandıda" dərslik yaradarkən nə qədər həssaslıq və uzaqgörənliklə digər xalqların ədəbiyyatından bəhrələnməsini təqdir etməkdir. İndi özümüz müstəqillik dövrünün dərsliyini yaratmaq cəhdi göstərərkən günün, müasir dövrün tələblərinə, müstəqil Azərbaycan Respublikasının təlim-tərbiyə siyasətinə uyğun bədii parçalar tapmayanda Abdulla Şaiqi çox yaxşı başa düşürük.

*Petuşok, petuşok,*
*Zolotoy qribişok.*
*Zaçem rano vstayoş,*
*Zaçem qromko poyoş,*
*Zaçem spat ne dayoş?*

Sovet hakimiyyəti illərində uşaq ədəbiyyatının yaranması və inkişafına çox böyük əhəmiyyət verilmişdir. Hökumət öz ideologiyasına uyğun əsərlərin yazılmasına, nəşrinə xüsusi diqqət yetirmiş, müllifləri həvəsləndirmək üçün onları mükafatlandırmış, təltif etmişdir. Bu iş Azərbaycanda da davam etdirilmişdir. O dövrdə yaranan uşaq ədəbiyyatı nümunələri ümumilikdə vahid sosializm ideyalarının təbliğinə xidmət eləsə belə, həmin əsərlərin əksəriyyəti hətta bu gün belə ümumbəşəri əhəmiyyət kəsb edir. Böyüklər üçün yaradılan ədəbiyyatla müqayisədə uşaq ədəbiyyatına ideologiyanın təsiri o qədər də böyük olmamışdır. Xüsusən, təbiətə, anaya, uşaqların arzu və düşüncələrinə, onların qəribə hərəkətlərinə həsr olunan əsərlər bu gün də öz təsir gücünü itirməmişdir.

Abdulla Şaiqin davamçıları olan Mikayıl Rzaquluzadə, Mirmehdi Seyidzadə, Xanımana Əlibəyli, Teymur Elçin kimi qələm sahiblərinin yaratdıqları əsərlərin əksəriyyəti indi də öz aktuallığını, bədii və estetik dəyərini itirməmişdir. Əsasən böyüklər üçün yazıb-yaradan, bu sahədə əhəmiyyətli uğurlar qazanan S.Vurğun, M.Müşfiq, M.Rahim, S.Rəhimov, Ə.Vəliyev, M.İbrahimov, M.Hüseyn, R. Rza, N.Rəfibəyli, M.Dilbazi, Ə.Cəmil, Ə.Cəfərzadə, İ.Şıxlı, B.Bayramov, H.Abbaszadə, Ə.Abbasov, B.Azəroğlu, M.Gülgün, B.Vahabzadə, N.Xəzri, Q.Qasımzadə, H.Arif, X.Hasilova, Ə.Babayeva, Y.Əzimzadə, M.Araz, Ə.Kərim, T.Bayram, Anar, Elçin, F.Qoca, F.Sadıq, N.Həsənzadə, X.R.Ulutürk, Y.Həsənbəy, H.Kürdoğlu, M.Aslan, İ.İsmayılzadə, Ə.Salahzadə, Ç.Əlioğlu, S.Sərxanlı, V.İbrahim, M.Ələkbərli, A.Cəmil, M. Abdulla kimi qələm sahiblərimizin də uşaqlar üçün əsərlər yazıb çap etdirmələri əhəmiyyətli ədəbi faktlardır. Emin Mahmudov, Namiq Abdullayev uşaqlar üçün çox böyük əhəmiyyət kəsb edən fantastik əsərlər yazmağa üstünlük vermişlər. Ancaq təəssüf ki, bu gün onların da yolunu davam etdirən cavan uşaq yazıçılarımız yoxdur.

Elə yazıçılarımız da olmuşdur ki, onlar daha çox uşaqlar üçün yazmışlar. Belələrinə misal olaraq E.Ağayevin, Ə.Əmrahovun, Z.Cabbarzadənin, Həbibənin, T.Mütəllibovun, N.Süleymanovun, Ə.Səmədlinin, T.Mahmudun, H.Ziyanın, C.Məmmədovun, İ.Tapdığın, M.Günərin, S.Məmmədzadənin, F.Tanrılının, Z.Xəlilin, T.Ağayevin, K.İsgəndərin, M.Quluzadənin, M.Sabirin, M.Namazın, Q.İsabəylinin, T.Mirzənin, Ş.Xəlillinin, Ə.Quluzadənin, S.Nuruqızının, G.Almazın və b. adlarını çəkə bilərik. Regionlarda da çox istedadlı uşaq yazıçılarımız vardır. Onlardan A.Əlizadənin, S.İbrahimlinin (Gəncə), Ə.Əlioğlunun (Goranboy), M.Hüseynzadənin (Şəmkir) çap olunan əsərləri göstərir ki, bu istedadlı qələm sahiblərinin yeni tipli uşaq ədəbiyyatı yaratmaq baxımından poetensial imkanları böyükdür.

Bir məsələni də xüsusi vurğulamaq yerinə düşərdi ki, hər yaş dövrünün öz ədəbiyyatı olmalıdır. Bağça yaşlı uşaqlarla ibtidai sinif şagirdlərini, ibtidai sinif şagirdləri ilə 5-8-ci sinifdə oxuyan uşaqları, orta yaş dövrünü keçirən balalarımızla yeniyetməlik dövrünü yaşayanlari eyni tutmaq olmaz. Hər yaş dövrünə uyğun ədəbiyyat nümunələri yaranmalıdır. Çünki müxtəlif yaş dövrlü uşaqların anlam və maraq dairələri, psixoloji durumu bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Lakin təəssüf ki, bizdə uşaq ədəbiyyatı deyəndə elə yalnız ibtidai məktəb yaşlı uşaqlar üçün yazılmış əsərlər nəzərdə tutulur.

Azərbaycan dövlətinin qayğısı və dəstəyi sahəsində uşaq ədəbiyyatının yaranmasında, formalaşmasında, uşaq və yeniyetmələrin dünyagörüşünün artmasında, oxu vərdişlərinin inkişafında, bilik dairələrinin genişlənməsində xüsusi xidməti olan "Göyərçin", "Günəş" (keçmiş "Pioner") jurnalları, "Savalan" (keçmiş "Azərbaycan pioneri") qəzeti indi də fəaliyyətini davam etdirir. "Göyərçin" məktəbəqədər yaşlı və ibtidai sinif şagirdləri üçün, "Günəş" və "Savalan" isə ortayaşlı uşaqlar üçün nəzərdə tutulub. Yeniyetmələr və gənclər üçün nəşr edilən, vaxtilə ən böyük tirajlı və nüfuzlu qəzetlərimizdən biri olan "Azərbaycan gəncləri" qəzeti təəssüf ki, indi fəaliyyət göstərmir və indiki mətbuat bolluğu içərisində onun missiyasını davam etdirən bir dənə də olsun nüfuzlu qəzetimiz yoxdur.

Hər bir mətbuat orqanı öz oxucularının yaş səviyyəsinə uyğun əsərlər çap etməlidir. Balacalar üçün kiçik şeirlər, yığcam hekayə və nağıllar lazımdırsa, ortayaşlı uşaqların məlumat dairəsi geniş olduğu üçün şeir və hekayə ilə yanaşı povest və romanlara da ehtiyac vardır. Vaxtilə E.Ağayevin "Şişpapaq", "Dəcəllər", Q.İlkinin "Üçtəpə uşaqları", "Ömrün oğlan çağı", "Qalada üsyan" povestlərini, Ə.Əhmədovanın "Damda yaşayan Karlsonla bacada yaşayan Damdabacanın macəraları" romanını, N.Abdullayev və E.Mahmudovun fantastik hekayə və povestlərini ortayaşlı uşaqlar və yeniyetmələr böyük maraqla oxuyurdular. İndi təəssüf ki, bu tipli əsərlər yaranmır. Hamı öz qələmini kiçikyaşlı uşaqlar üçün şeirlər, nağıllar yazmaqla sınamaq istəyir. Halbuki indi ortayaşlı uşaqlar və yeniyetmələr üçün ədəbiyyata da çox böyük ehtiyac vardır.

Əlifbanı yenicə öyrənən uşaqların müstəqil oxusu üçün yığcam, sadə, didaktik və tərbiyəvi əhəmiyyətə malik uşaq ədəbiyyatı nümunələrinə böyük ehtiyac vardır. Uşaq ədəbiyyatının dili sadə, aydın, obrazlı olmalıdır ki, uşaq elə ilk oxuduğu nağıldan, hekayədən, şeirdən sonra yavaş-yavaş dilimizin incəliklərini öyrənməyə başlasın, bu dilin şirinliyini, ahəngdarlığını, musiqililiyini duysun, hiss eləsin və bundan sonra onun müstəqil şəkildə oxumağa, öyrənməyə həvəsi güclənsin.

Nə qədər istedadlı adamın qələmindən çıxsa belə, balacalar üçün yazılan şeirlər, hekayələr, nağıllar ortayaşlı uşaqlar və yeniyetmələr üçün maraqlı deyildir. Onları düşündürən problemlər daha ciddi, əhatəli, düşündürücü, problematik hekayələrin, romanların, povestlərin, fantastik əsərlərin ortaya qoyulması zərurətini gündəmə gətirir. Elmi-texniki tərəqqi, internet əsrinin uşaqlarının marağını təmin etmək üçün yazıçı çox ciddi oxumalı, öyrənməli, gərgin yaradıcılıq axtarışları aparmalıdır. Bunun üçün isə o, maddi cəhətdən tam təmin olunmalıdır ki, digər yardımçı işlərlə məşğul olmağa ehtiyac qalmasın.

Bizə elə gəlir ki, Azərbaycan dilində müasir səviyyəli, həm məzmun, həm də tərtibat cəhətindən gözəl uşaq kitablarının yaranmamasının, meydana gəlməməsinin günahını təkcə yaradıcı insanlarda axtarmaq düzgün deyildir. Uşaq yazıçısının birinci vəzifəsi balalarımız üçün gözəl əsərlər yazmaqdan ibarətdir. Bunun üçün isə onun maddi təminatla bərabər mənəvi təminatı da olmalıdır. İndi ən istedadlı, imkanlı yazıçı belə öz hesabına nəfis tərtibatla, kütləvi tirajla uşaqların zövqünü oxşayan kitablar çap etdirib yaymaq imkanına malik deyildir. Onu da nəzərə alsaq ki, müasir uşaq kitabı rəngli, gözəl kağızda çap olunmalıdır, onun maliyyə xərclərinin digər kitablarla müqayisədə nə qədər baha başa gəlməsi danılmazdır. Uşaq yazıçısına həm qayğı, diqqət, həm də tələbkarlıq lazımdır.

Ən əsas problemlərdən biri də oxucu problemidir. Təssüflə də olsa qeyd etməliyik ki, indi bizdə mütaliəyə maraq çox azalıb. Kitab mağazalarının əksəriyyəti öz profilini dəyişib. Kitab ticarəti, kitab yayımı şəbəkəsi günün tələblərinə cavab vermir. Müəlliflərin öz hesabına çap olunan kitablarının tirajının ən çoxu 500 nüsxə olması bir yana, heç o 500 nüsxəni yaymaq ehtimalı da çox azdır. Nəinki uşaqların, yeniyetmələrin, hətta valideynlərin də kitaba, qiraətə münasibəti acınacaqlıdır. Televiziyalarda gedən şoularda kimisə dəstəkləmək üçün qızırğalanmadan sms-lər göndərənlərin kitaba, jurnala pul xərcləməyə əli gəlmir. Uşaqlarına bahalı hədiyyələr, mobil telefonlar alan, ona ən azı ayda on manatlıq kontur yükləyən valideynlər görəsən ildə 12 manat verib "Göyərçin" jurnalına, digər uşaq mətbuatlarına abunə yazılsalar nə itirərlər? Əvəzində balaları onların tərbiyəsinə mənfi təsir göstərən şouların tüğyan etdiyi ekranlardan gözlərini çəkib, uşaq təfəkkürünə uyğun əsərlər oxusalar çox şey qazanarlar.

Bir məsələni də xüsusi qeyd etmək istəyirəm. Uşaq mətbuatı dövlət tərəfindən maliyyələşdirilir, ancaq onun yayımı böyük bir problemə çevrilib. İndi təxminən ölkəmizdə 4500-dən yuxarı məktəb var. Görəsən hər məktəb üçün çox yox, cəmi-cümlətanı bircə nüsxə "Göyərçin", "Günəş" jurnallarına, "Savalan" qəzetinə abunə yazdırmaq mümkünsüzdürmü? Ümumi işimizin xətrinə biz əlaqədar təşkilatlardan dəstək, kömək gözləyirik.

Filosoflar çox doğru qeyd eləyirlər ki, tarix təkrar olunur. Hələ ötən əsrin əvvəllərində də kitab nəşri, onun yayımı çox böyük çətinliklərlə üzləşirdi. O zaman fəaliyyət göstərən "Nicat" xeyriyyə cəmiyyətinin kitab nəşr eləyib yaymaq siyasətini Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə kimi ziyalılarımız dəstəkləyirdilər. Görəsən indi imkanlı xeyriyyəçilərimiz onsuz da toylarda qazanan ala-babat müğənnilərimizə sponsorluq etmək əvəzinə uşaq kitabları nəşr etdirib yaymaq kimi çox faydalı bir işdən niyə uzaq qaçırlar? Niyə onlar unudurlar ki, bütün millət üçün bu işin faydası böyükdür?

Fəxarətlə demək olar ki, dünya uşaq ədəbiyyatının bir sıra gözəl nümunələri vaxtilə dilimizə tərcümə edilib nəşr olunmuşdur. İndi vəsait olsa həmin əsərləri də nəfis tərtibatlı kitablar şəklində uşaqlarımıza təqdim etmək böyük fayda verə bilərdi.

Ölkəmiz gündən-günə güclənir, inkişaf edir. Balalarımızın təlim-tərbiyəsinə dövlət səviyyəsində qayğı göstərilir. İndi yüksək səviyyədə uşaqlar üçün əsərləri kütləvi tirajla, nəfis şəkildə nəşr eləyib yayan, müəllifləri həvəsləndirən, onlara gördükləri işin dəyəri müqabilində qonorar verən təşkilata - nəşriyyata böyük ehtiyac duyulur. Yoxsa yazıçının öz vəsaiti hesabına ala-babat çap olunan, yayılması böyük problemə çevrilən üç yüz, beş yüz tirajlı kitablarla inkişaf etməkdə olan ölkənin tələbatını ödəmək mümkün deyildir. Sovet dövründə yazıb-yaradan uşaq yazıçılarımızın, şairlərimizin əsərləri içərisindən də günün tələblərinə cavab verən uşaq hekayələrini, nağıllarını, povestlərini, şeir və poemalarını seçib yenidən dövlət səviyyəsində çap elməyə böyük ehtiyac duyulur.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə kiril əlifbasında olan kitabların dövlət hesabına nəşr edilib kitabxanalara hədiyyə edilməsini bu yolda atılan ilk uğurlu addım hesab etmək olar. Ümid eləyirik ki, balalarımızın təlim-tərbiyəsinə xüsusi diqqət yetirən ölkə rəhbərliyi bütün sahələrdə olduğu kimi, bu sahədə də ardıcıl siyasətini davam etdirəcəkdir.

Gələcəyin ləyaqətli vətəndaşını yetişdirmək və tərbiyə etmək üçün ən dəyərli vasitələrdən biri də günün tələblərinə cavab verən, həm müstəqil Azərbaycan Respublikasının ideologiyasına, həm də müasir dövrün tələblərinə uyğun əsərlər yazıb nəşr etdirməyə böyük ehtiyac vardır. Lakin bu o demək deyildir ki, bizdən əvvəl yaranmış əsərlərdən imtina edək. Onların da arasından günümüzlə səsləşən ədəbi nümunələri seçib yenidən nəşr etməyə böyük ehtiyac duyulur.

Biz öz ədəbiyyatımızla, musiqimizlə, incəsənətimizlə uşaqlarımızı öz tərəfimizə çəkə bilməsək, çox şey itirə bilərik. Onlar informasiya bolluğu və seçim azadlığı şəraitində bizim yox, başqa xalqın nümayəndələri kimi böyüyə, formalaşa bilərlər. Bunun üçün Mirzə Cəlil demişkən, hamımız "papağımızı qabağımıza qoyub düşünməli", balalarımızın tərbiyəsi, estetik zövqünün formalaşması üçün əlimizdən gələni əsirgəməməliyik. Bir də xatırlatmağı vacib sanırıq ki, bu gün öz yaş səviyyələrinə uyğun poetik nümunələri oxumayanlar, sabah böyüklər üçün yaradılmış ən ciddi, ən gözəl əsərlərimizə belə biganə qalacaqlar.

Uşaq ədəbiyyatı, onun yaranması, nəşri, yayımı çox böyük əhəmiyyət kəsb edir. Ona görə də ilkin mərhələdə bu məsələnin müzakirəsinə, yollar axtarıb tapılmasına böyük ehtiyac duyulur. Ümid edirəm ki, maarifpərvər ziyalılarımız, alimlərimiz, pedaqoqlarımız, yazıçı və naşirlərimiz səsimizə səs verəcək, öz fikir və mülahizələrini söyləyəcək, problemdən çıxış yolunu tapmaqda bizə yardımçı olacaqlar.

**Rafiq YUSİFOĞLU**
*professor*



## Allah rəhmət eləsin

Azərbaycan Yazıçılar Birliyi və Naxçıvan Yazıçılar Birliyi **Əbülfəz Quliyevə**, həyat yoldaşı

**VALİDƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəkir Nəbiyev, Ayaz Vəfalı, Qəzənfər Paşayev **Musa Yaquba**, həyat yoldaşı

**ZÖHRƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Yazıçılar Birliyi və Naxçıvan Yazıçılar Birliyi **Lütviyyə Əsgərzadəyə**, qardaşı

**SALMANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Yazıçılar Birliyi **Şamil Zamana**, qardaşı

**RƏŞİD CƏLAL oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



Azərbaycan Yazıçılar Birliyi **Vahid Əlioğluna**, əzizi

**CƏNNƏT İSMAYILOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.